Dünya çempionumuzu və məşqçilərimizi təbrik edirik



Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin məşqçi-müəllimi Fərid Mustafayevin əvvəlki illər sərbəst güləşçi kimi hazırladığı idmançımız, Bum qəsəbə sakini hazırda sumo idman növü ilə məşğul olan Şəfiyev Əmrah Ramiz oğlu 17-18 oktyabr 2026-cı il tarixlərində idmanın Sumo növü üzrə keçirilən Dünya Çempionatında uğurla yarışmış, 85 kq çəki dərəsində bütün rəqiblərinə qalib gələrək dünya çempionu tituluna sahib çıxmışdır.

Bu böyük uğura görə məşqçiləri və dünya çempionumuz Əmrah Şəfiyevi təbrik edirik.

Ədalət ƏLIYEV,
Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktoru.

Zəfər yürüşü etdik



Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin velosipedçi şagirdlərindən bir qrupu 8 noyabr "Zəfər günü" münasibətilə "Zəfər yürüşü" keçirmişdir. Yürüşdən əvvəl Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktoru Ədalət Əliyev, Qəbələ Olimpiya İdman Kompleksinin direktoru Valeh Əzimov, Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin təlimatçısı Kamran Cabbarov və məşqçi-müəllim Ehsan Nəzirov velosipedçilər qarşısında çıxış etmişlər. Yürüş Qəbələ Olimpiya İdman Kompleksinin həyətindən başlamış və Qəbələ Atıcılıq Kompleksinin böyük dairələrini bir neçə dəfə fırlanmaqla təhlükəsiz şəkildə başa vurulmuşdur.

Nərmin RIZVANOVA,
Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktor müavini.

Atalar və qızlar

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində olan Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi (UADM) və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə Beynəlxalq Qızlar Günü münasibətilə "Atalar və qızlar" mövzusunda təlim keçirilib.

Təlimdə UADM-in direktoru Nərmin Cabbarlı, sosial iş üzrə mütəxəssis-psixoloq Nailə Kərimli, sosial iş üzrə mütəxəssis Gülər Cabbarova, təlimçi Ceyhun Adıgözəlli, Peşə Təhsil Mərkəzinin tələbələri və onların valideynləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər atalar və qızlar arasında sağlam münasibətlərin formalaşmasının uşaqların mənəvi-psixoloji inkişafında mühüm rol oynadığını qeyd ediblər. Bildirilib ki, ailədə qarşılıqlı hörmət, etimad, sevgi və dəstəyə əsaslanan münasibətlər qızların özünəinamının formalaşmasına, onların gələcək həyatında düzgün seçimlər etməsinə və cəmiyyətin fəal üzvünə çevrilməsinə mühüm təsir göstərir.

Çıxışlarda qızların təhsil alması, onların hüquq və azadlıqlarının təmin olunması, potensiallarının üzə çıxarılması və gələcək inkişafları üçün əlverişli mühitin yaradılmasının vacibliyi diqqətə çatdırılıb. Təlim zamanı interaktiv oyunlar təşkil olunub və mövzuya uyğun videoçarx nümayiş etdirilib.

Nərmin CABBARLI,
UADM-ın direktoru.


Tarixi abidələrimizi tanıyaq və tanıdaq



Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Memarlıq və Şəhərsalma ili"nə həsr olunmuş "Tarixi abidələrimizi tanıyaq və tanıdaq" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər Azərbaycanın zəngin tarixi-memarlıq irsinin qorunmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu bu xəttin Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdiridiyini bildirərək, ölkəmizdə reallaşdırılan genişmiqyaslı bərpa və quruculuq işləri, tarixi abidələrin konservasiyası ilə restavrasiyası sahəsində icra olunan ardıcıl layihələrdən bəhs etmişlər. Sonda Qəbələ rayonu ərazisində yerləşən qədim tarixi abidələr, komplekslər və məscidlər barədə videoçarx nümayiş etdirilib.

Poetik düşüncələrin toplumu

Gənc istedadları üzə çıxarmaq, onları oxucu kütləsinə tanıtmaq orta yaş və yaşlı nəslin ümdə vəzifəsidir. Fəaliyyət göstərən yaradıcı təşkilatlar və birliklərin gənclərin öz istedadlarını üzə çıxarılmasında başlıca rolu vardır. Aysel (Qəbələli) Tahir qızı Hümbətova Daşlıca kəndində doğulub boya-başa çatıb. O, "Qəbələ Yazarlarına Dəstək İctimai Birliyinin üzvüdür. Zəngin düşüncə tərzi və duyğuları olan Aysel Qəbələli müxtəlif mövzularda ürəklərə yol tapan şeirləri ilə bir sıra jurnal və qəzetlərdə, eləcə də sosial səhifədə rəğbət qazanmışdır. O, həm də gözəl qiraətçidir.



Bu günlərdə onun 222 səhifəlik poetik düşüncələrinin toplusu olan ilk kitabı nəşr olunmuşdur. "Ömür payı" adlı bu kitabda Aysel Qəbələli həm vətənpərvərlik, həm də sevgi mövzularında səmimi duyğularını ifadə etmişdir. Şeirlərində axıcılıq, təbiillik diqqəti cəlb edir.

Bu günlərdə "Ömür payı" kitabının təqdimat mərasimi keçirilmişdir. Təqdimat mərasimində Nurlan Vaqif (aparıcı), Azad Məmmədov, Cəlil Xeyirbəy, Vaqif Yaquboğlu, Rəna Mahmudova, Nəcibə İlkin, Qərib Hüseyn, Ədalət Əliyev, Əhməd Məmmədli, Asim Məmmədov və başqa ziyalı və şeir həvəskarları iştirak etmişlər.

Təqdimat mərasimində müəllifin şeirlərindən nümunələr oxunmuş, xatirə şəkilləri çəkilmişdir.


BİBİXANIM.

"Tək səbir" adlı tamaşa nümayiş olunmuşdur



Qəbələ rayon Mədəniyyət Mərkəzində dahi Azərbaycan şairi, satirik poeziyamızın qüdrətli söz ustası Mirzə Ələkbər Sabirin yaradıcılığına həsr olunmuş "Tək səbir" adlı tamaşa nümayiş olunmuşdur. Tamaşa ədəbiyyatımızın zəngin irsinin yaşadılması, milli-mənəvi dəyərlərin təbliği, klassik ədəbiyyatla teatr sənəti arasında canlı əlaqənin yaradılması, yeniyetmə və gənclərin mövhumatdan, cəhalətdən uzaqlaşdıraraq təhsilə, elmə yönləndirilməsi sahəsində teatrın maarifləndirici imkanlarının nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. İsmayıl bəy Qutqaşınlı adına Xalq teatrının aktyorlarının ifasında nümayiş etdirilən, tərbiyəvi, təbliğat xarakteri daşıyan tamaşa izləyicilər tərəfindən alqışla qarşılanmışdır.

Qızıl payız.



İTMİŞDİR

Qəbələ şəhər sakini **Məmmədova Aynurə Qardaşəli qızına** məxsus **doğum haqqında şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ səsi" qəzetinin kollektivi Qəbələ Rayon Mədəniyyət Mərkəzinin direktoru **Malik Ağayevə** yaxın qohumları

XURAMAN və SAFURA bacılarının

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149
VÖEN: 4402717261
Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 900